# KİTABXANAŞÜNASLIQ

*A.Abdullayeva. Qədim Şuşanın kitab və kitabxana mədəniyyəti // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.173-181.*

UOT: 02.

**Adilə Abdullayeva**
*Tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Bakı ş., İstiqlaliyyət küç. 22*
adila.abdullayeva@unec.edu.az

## QƏDİM ŞUŞANIN KİTAB VƏ KİTABXANA MƏDƏNİYYƏTİ

**Xülasə**

Məqalədə qədim Şuşanın 125 illik tarixə malik kitabxanalarının yaranması, fəaliyyəti və erməni işğalı zamanı onların dağıdılması, Azərbaycanın tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri, təhsili, elmi və iqtisadiyyatına dair kitabxananın unikal və nadir nüsxələrinin, dəyərli nəşrlərinin talan edilməsindən bəhs edilir. Tarixi araşdırmalar göstərir ki, Qarabağda bir kitabxana belə ermənilər tərəfindən qurulmamış və Şuşada tarixən ilk kitabxanadan tutmuş günümüzə qədər bütün kitabxanaların yaradılması, fəaliyyəti və inkişafı Azərbaycanın ziyalıları tərəfindən həyata keçirilib. 1992-ci ilin may ayında Şuşanın erməni silahlı dəstələri tərəfindən işğalı zamanı təkcə Mədəniyyət Nazirliyi şəbəkəsinə daxil olan kitabxanaların fonduna məxsus 200 000 nüsxə nəşr məhv edilmişdir. Məqalədə həmçinin 2020-ci ilin sentyabr-noyabr ayları ərzində baş vermiş 44 günlük müharibədən və əldə edilmiş zəfərdən sonra Qarabağda, eləcə də Şuşada həyata keçirilən yenidənqurma və bərpa işləri zamanı yaradılacaq smart kitabxanalar, onların fəaliyyət istiqamətləri və yeni kitabxana xidmətləri təqdim edilmişdir.

***Açar sözlər:*** *dağıdılmış kitabxanalar, Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi, kitabxana fondu, kitabxana xidmətləri, kitabxanaçılar, ağıllı kitabxana*

**Giriş**

*Azərbaycan Respublikasının son 30 ilə yaxın dövrdə işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və bir mədəniyyət*

*abidəsi olaraq qəsdən izlərin itirilməsi, Qarabağda məqsədyönlü şəkildə, müxtəlif üsullarla aparılan saxta "erməniləşdirmə" siyasətinin təzahürü idi. Bu gün zəfər çalmış ölkə kimi erməni saxtakarlığının qarşısının alınmasında, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi, iqtisadiyyatı, elmi, təhsili və mədəniyyəti, baş vermiş münaqişələr, yerli əhaliyə qarşı erməni vəhşilikləri haqda məlumatların, bütövlükdə Qarabağ həqiqətlərinin həm ölkə daxilində, həm də dünya ictimaiyyətinə qərəzsiz çatdırılmasında bir sıra sahələrin mütəxəssisləri kimi kitabxanaçı-tədqiqatçıların da qarşısında mühüm vəzifələr durur. Xüsusən də 2022-ci ildə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin 05 yanvar 2022-ci il tarixli sərəncamına əsasən ölkədə "Şuşa ili"nin elan edilməsi ilə yəqin ki, Şuşa mədəniyyəti, kitabxanaları, kitab çapı, əhalinin mütaliə vərdişləri ilə bağlı da silsilə elmi və publisistik yazılar dərc ediləcəkdir [3].*

*Qısa bir arayış vermək istərdim ki, tarixi mənbələrə əsaslanaraq deyə bilərik ki, Qarabağ ərazisinə XIX əsrin 30-cu illərindən etibarən köçürülməyə başlayan ermənilər, bu torpaqların əsl sahibləri olmadığından və "gəlmə xalq" kimi zorla məskunlaşdırıldıqları torpaqlarda hər hansı bir elm, təhsil, mədəniyyət ocağının yaradılmasına nə bir təşəbbüs göstərmiş, nə bu sahəyə bir töhfə vermiş, nə də bu müəssisələrin rəhbəri olmuşdur. Qədim Şuşada tarixən ilkin kitabxanaların yaradılması, günümüzə qədər fəaliyyəti və inkişafı azərbaycanlıların adı ilə bağlıdır. Ermənilər isə əzəli xislətlərinə uyğun olaraq yalnız məhv etmək, dağıtmaq, talamaqla məşğul olublar.*

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunan Şuşa Kiçik Qafqazda Qarabağ silsiləsi ərazisində yerləşir və sahəsi 289 $km^2$-dir. Şuşa rayonunun ərazisinə bir şəhər və 31 kənd daxildir. İnzibati mərkəzi Şuşa şəhəridir. 1992-ci il may ayının 08-də rayon erməni silahlı dəstələri tərəfindən işğal olunmuşdur. İşğal zamanı 480 nəfər insan qətlə yetirilmiş, 600 nəfər yaralanmış, 150 nəfər əlil olmuş, 552 körpə yetim qalmış, 20 mindən artıq əhali isə məcburi köçkün vəziyyətinə düşmüşdür. Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri, müqəddəs məbəd və məscidlər, kitabxanalar zəngin kolleksiyaları ilə birlikdə düşmən tərəfindən talan edilmişdir. İkinci Qarabağ müharibəsində, 8 noyabr 2020-ci il tarixində doğma Şuşamız mənfur düşməndən azad edilmişdir.

Apardığımız tarixi araşdırma nəticəsində aydın olur ki, Şuşada hələ XVIII əsrə dair Pənah xanın saray kitabxanası mövcud olsa da, sonralar Dağlıq Qarabağ ərazisində ilk kitabxana-qiraətxana da məhz Şuşada yaradılmışdır. Şuşa Realnı məktəbinin fransız dili müəllimi Əhməd bəy Ağaoğlu 1896-cı ildə Şuşada müsəlman qiraətxanası adı ilə şuşalılar üçün yeni kitabxana açmışdır [16, s. 9]. Görkəmli ədib, ziyalı Y.V.Çəmənzəminli "Bir cavanın dəftəri" adlı xatiratında da qeyd edir ki, 1896-cı ildə Əhməd bəy Şuşada birinci olaraq kitabxana qirayətxana təşkil etdi, lakin növbəti il Bakıya getdikdə kitabxana qapanmışdır. Bəzi mənbələrdə isə qiraətxananın 3 il ərzində fəaliyyət göstərdiyi və kitab fondunun 500 nüsxəyə çatdığı da bildirilir [16, s. 10]. Filologiya üzrə elmlər doktoru İmaməddin Zəkiyev "Əsrlərin əks-sədası" adlı kitabında qeyd edir ki, Ə.Ağaoğlunun kitabxanası təkcə oxucuların deyil, qələm sahiblərinin də diqqətini cəlb etmişdir. Belə ki, "Tərcüman" qəzeti bu kitabxananın mədəni tədbirlərini yüksək qiymətləndirmiş, onu Şuşanın ilk müasir "müsəlman qiraətxanası" adlandırmışdır. Əhməd bəy Ağaoğlu fransız dilini ana dili kimi mükəmməl bildiyi və bu dildə dərs dediyi üçün yerli əhali arasında "Firəng Əhməd", kitabxanası isə

"Firəng Əhmədin kitabxanası" adı ilə tanınmışdır. Bu kitabxana fondunun yerli və dünya nəşrləri ilə zənginliyi baxımından Bakı və Quba kitabxanalarından sonra Qafqazın 3-cü böyük kitabxanası sayılmışdır [19, s. 143].

Şuşa əsrlərdən bəri xalqımızın mədəniyyət mərkəzi kimi tanınmış və ilk kitabxana kimi ilk kitab çapı da Şuşada baş tutmuşdur. Belə ki, o zaman Şuşada məktəb şəbəkəsinin genişlənməsi dərs kitablarına tələbatı artırmış və bu da öz növbəsində kitab çapını zəruri etmişdir. Dövrünün görkəmli şəxsiyyətlərindən, mütərəqqi ziyalılarından biri olmuş Mir Möhsün Hacı Seyid Əhmədoğlu Ağamirzadə Nəvvab Qarabaği (1832-1918) 1884-cü ilin əvvəlində daşbasma (litoqrafiya) üsulu ilə kitab çap edən mətbəə təşkil etmiş və burada dərs kitablarını, özünün, eləcə də müasirlərinin bir sıra məcmuələrini, dini risalələri çap etmişdir. M.M.Nəvvab bu çap nəşrlərinin təkcə mətnlərini yazmamış, eyni zamanda onlara daxil edilən illüstrasiyaları da çəkmişdir. O, 1884-cü ildə Haşımzadə Ağa Mirmehdinin (Xəzani) "Həraitül-islam" adlı kitabçasını, 1899-cu ildə özünün müəllifi olduğu əsərləri, şeirləri, "Kitabi-kəşfül-həqiqeyi-məsnəvi fi mövzuat və mənzumati-Nəvvab" və s. kitabları şəxsi daşbasmaxanasında çapdan buraxmışdır. Kitab çapı genişləndikcə onların toplandığı və istifadə edilə biləcəyi bir məkana da ehtiyac duyulurdu. Elm öyrənmənin, kitabın, mütaliənin əhəmiyyətini anlayan ziyalımız M.M. Nəvvab 1903- cü ildə Gövhərağa məscidinin həyətində növbəti kitabxana qiraətxananı da açmışdır [12, s. 105]. Hətta mənbələrdə bu kitabxanada onun oğlu Miribrahimin (Miriş ağa) çalışması barədə məlumatlar qeyd edilib. Nəvvabın mətbəəsində çap edilən kitablar Şuşa kitabxanalarında mühafizə edilir və geniş oxucu kütləsinə təqdim edilirdi. Kitabxanaya Bakıdan "Əkinçi", Tbilisidən "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Qafqaz", "Molla Nəsrəddin", Moskvadan "Pravda", "İskra", Hindistandan "Həblül-mətin", İstanbuldan "Səba", Tehrandan "Nəsiriyyət" və digər dövri nəşrlər, eləcə də kitablar gətirilib Şuşa əhalisi arasında təbliğ edilirdi. Dövrünün alimləri, Mirzə Cəlal Yusifzadə, Haşım bəy Vəzirov, Fərhad Ağazadə kimi ziyalılar həmin kitabxanalarda toplaşır, elm, təhsil, ədəbiyyat barədə müzakirələr aparır, beləliklə, Şuşada elmi, mədəni, ədəbi mühit formalaşırdı [19, s. 165].

Sonralar Şuşada 1924-cü ildə şəhər kitabxanası təşkil edilmiş və ilk zamanlar kitabxananın 4875 nüsxə kitab fondu, 269 oxucusu olmuşdur [16, s. 27]. Digər bir maraqlı fakt isə odur ki, dövrünün tanınmış ziyalısı, yarım əsrdən çox bir dövrdə Azərbaycan maarifi və mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Xosrov Axundzadə (Şaiq) 1935-ci ildə Şuşa şəhər kütləvi kitabxanasına müdir təyin olunmuşdur [16, s. 49]. Təbii ki, pedaqoji və zəngin ədəbi irsi ilə yanaşı "Qarabağın tarixçisi" kimi də tanınan Xosrov Şaiqin kitabxanaya rəhbərlik etməsi də əhaliyə kitabxana xidmətinin və kitabxananın fəaliyyətinin yaxşılaşdırılması, fondunun zənginləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edirdi. 1938-ci ildə Şuşa şəhər kitabxanasının fondunda 4875 nüsxə ədəbiyyat, 269 nəfər daimi oxucu, Şuşa rayon kitabxanasının fondunda isə 12000 nüsxə ədəbiyyat, 695 oxucu var idi. Həmin ildə Şuşada uşaq kitabxanası da yaradılmışdır [16, s. 54].

Sonrakı illərdə bildiyimiz kimi, Sov.İKP MK-nın müasir mərhələdə kitabxanaların ideoloji, mədəni-maarif və informasiya funksiyalarını müəyyənləşdirdiyi və kitabxanaların mərkəzləşdirilməsi məsələsini irəli sürdüyü 1974-cü il "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərarı əsasında ölkədə kitabxanaların mərkəzləşdirilməsinə başlanıldı. Və bu qərardan sonra Şuşa

şəhər mərkəzində iki mərtəbəli yaraşıqlı kitabxana binası inşa edilərək 1977-ci ildə istifadəyə verildi.



***Şək. 1.** Şuşa rayon Mərkəzi kitabxanası*
*(Zəfərdən sonra çəkilmiş foto-2021-ci il)*

Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1 mərkəz, 31 kitabxana filialından ibarət idi. 1977-ci ilin məlumatına əsasən Mərkəzi kitabxanada 50 minə yaxın kitab var idi. Yeni kitabxanada 160 yerlik oxu zalı, musiqi məktəbinin şagirdləri üçün linqafon zalı oxuculara xidmət edirdi. Kitabxananın müdiri Ruslan Əliyev idi. Kitabxanada mübadilə fondu yaradılmış və kənd əhalisinə bu fond vasitəsilə vaxtaşırı səyyar xidmət təşkil edilirdi [15]. Şuşa qəzetində dərc edilmiş başqa bir məqalədə kitabxanada 2 şöbə- xidmət və uşaq şöbələri fəaliyyət göstərdiyi qeyd edilmiş, kitabxanada müxtəlif əlamətdar və tarixi günlərlə əlaqədar kütləvi tədbirlərin müntəzəm olaraq keçirildiyi də bildirilmişdir. Eyni zamanda göstərilir ki, kitabxana ölkədə dərc edilmiş "Pravda", "Kommunist", "Azərbaycan gəncləri", "Bakinskiy raboçiy" qəzetləri və "Azərbaycan", "Ulduz" jurnallarına da abunəliyi həyata keçirərək oxuculara xidmət zamanı dövri mətbuat nümunələri də təqdim edirdi [5]. Kitabxananın fəal əməkdaşları arasında Ruslan Əliyev, Miniş Ələkbərova, Şura Həmzəyeva, Səmayə Rüstəmova, Tahirə Əliyeva, Ofelya Ağayeva, Zülfiyyə Məmmədova, Bəxtiyar Abdullayev, Lyudmila Vəliyeva fərqlənirdi [1].

Xalqın mədəni irsinin, ictimai fikrinin, ölkədə mövcud ictimai-siyasi, sosial-mədəni durumun öyrənilməsində tarixən dövri mətbuatın müstəsna rolu olmuşdur. Qəzet həm də dövlətin danışan dili olduğu üçün bu araşdırmamızda da qəzetlərə üstünlük vermişik. Hazırda tədqiqat üçün bir çox mənbələrin erməni işğalı zamanı məhv edildiyini nəzərə alsaq müraciət edə biləcəyimiz mənbə kimi Şuşa qəzetini tədqiq etmişik. Onu da qeyd edək ki, Rayonun yerli qəzeti olan Şuşa qəzetində kitabxananın fəaliyyəti, qabaqcıl kənd kitabxanaları, fəal kitabxanaçılar haqqında vaxtaşırı məqalələr dərc edilir, geniş ictimaiyyət məlumatlandırılırdı. Qəzetin 1967-ci il 01 aprel tarixli sayında "Kitabxanalara ictimai baxış" adlı yazı dərc edilib. Bu yazıda göstərilir ki, rayonda 16 kütləvi kitabxana fəaliyyət göstərir, 5 kənd kitabxanası əsaslı təmir edilib. Rayon Mərkəzi kitabxanasında oxucuların sayı ötən ilin müvafiq dövrünə nisbətən 450 nəfər artmışdır [2]. Qəzetin digər 1968-ci il 14 noyabr sayında dərc edilmiş "Kitabxanadan istifadə qaydalarına ciddi əməl etməli" adlı yazıda Şuşa rayon

kitabxanasının müdiri Ş.Həmzəyeva oxucular tərəfindən geri qaytarılmayan kitablar barədə məlumat verir. Bu məlumata əsasən kitabxanada qismən də olsa hansı kitabların olması barədə informasiya əldə etmiş oluruq: Mark Tven "Şəhzadə və dilənçi", Salam Qədirzadə "Başabəla Paşabala", Əlfi Qasımov "Adilənin taleyi", "İnsanın normal anatomiyası", H.Mehdi "Qara daşlar", Ə.Rzayev "Maldarlıq", M.Qəniyev "Baytarlıq mikrobiologiyası" və s. [9].

Şuşa qəzetinin 11 dekabr 1975-ci il tarixli sayında "Kitab fondu artır" başlığı ilə verilən yazıda göstərilir ki, kitabxanaya 1000-dən çox kitab daxil olmuşdur [13]. Qəzetin 1977-ci il 22 fevral tarixli sayında "Yeni kitablar" adlı bir yazıda isə qeyd edilir ki, mərkəzi rayon kitabxanasına 200 nüsxə yeni bədii və elmi kitab daxil olmuşdur. Bu kitablar arasında İ.Dəmirovun "Azərbaycan dərman bitkiləri", A.Əfəndiyevin "Müdriklik səlahiyyəti", Y.V.Çəmənzəminlinin "Seçilmiş əsərləri", F.Qoca "Gül ömrü", "Azərbaycan Sovet uşaq ədəbiyyatı antologiyası", F.Mehdi "İnsan unudulmur", "Atalar sözü, ağılın gözü" və başqa kitablar var idi [15]. O dövrün kitabxana fəaliyyəti ilə bağlı sənədlər məhv edilsə də yerli Şuşa qəzetinin müxtəlif saylarında çap edilən məlumat xarakterli yazılardan kitabxanaya hər il kifayət qədər yeni kitabların daxil olduğunun şahidi oluruq. Eyni zamanda bu yazılar kitabxananın fondunda olan kitablara dair də informasiya vermiş olur.

1991-ci ilin məlumatına görə isə rayon MKS-də çalışan işçilərin sayı 103 nəfər, kitabxana fondunun ümumi həcmi 200 min nüsxə, oxucularının ümumi sayı 10 min nəfər təşkil etmişdir. Şuşa rayon MKS-i respublika əhəmiyyətli "Xarı Bülbül" musiqi festivalının keçirilməsində daim fəal iştirak etmişdir. 1992-ci il 8 may tarixində Şuşa rayonu erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, rayon ərazisində etnik təmizləmə əməliyyatı aparılmışdır. İşğal nəticəsində rayon ərazisindəki 32 kitabxana və bu kitabxanalarda saxlanılan qədim və unikal kitablar yandırılmış və qiymətli nəşrlər məhv edilmişdir. Kitabxanaların dağıdılması nəticəsində dövlətə 1 milyon 106 min manat həcmində maddi ziyan dəymişdir [7, s. 6]. Erməni vandallarının törətdiyi mədəni və mənəvi ziyanı isə rəqəmlərlə hesablamaq mümkünsüzdür.



***Şək.2.*** *Dağıdılmış Şuşa kitabxanası*

İşğaldan sonrakı dövrdə 1993-cü il fevral ayından etibarən Şuşa kitabxanası Bakı şəhəri N.Nərimanov rayonu, Təbriz küçəsi 2 A ünvanında yaşayış binasının altında 3 otaqda fəaliyyətini bərpa etmişdir. Təbii ki, kitabxananın fonduna məxsus kitablar işğal zamanı məhv edilmiş, heç bir nəşr Bakıya gətirilə bilməmiş, bərpa olunmuş kitabxana isə ziyalıların dəstəyi və səyləri nəticəsində yeni kitab fondu ilə fəaliyyətə başlamışdır.

Şuşa rayon MKS-nin direktoru Gülsarə Abbasovanın verdiyi məlumata əsasən Şuşa rayon MKS-nin yalnız 3 filialı işğaldan sonra fəaliyyətini çətinliklə də olsa bərpa etmişdir.

Bunlardan biri Şuşa rayon MKS-nin Malıbəyli kənd kitabxana filialı 1910-cu ildə yaradılmışdır. Şuşanın işğalından sonra kitabxana Yeni Ramana- 450 qəsəbəsindəki Musiqi məktəbinin nəzdində öz fəaliyyətini davam etdirir. Kitabxana sahəsi 80 kv/m olan 2 otaqdan ibarətdir. Kitabxananın orta ixtisas təhsilli 2 nəfər işçisi var. Kitabxananın fondu latın qrafikası ilə 8599 nüsxə təşkil edir.

Şuşa rayon MKS-nin Xəlfəli kənd kitabxana filialı 1928-ci ildə yaradılmışdır. İşğaldan sonra kitabxana öz fəaliyyətini Şəki şəhəri, Yeni Çələbixan qəsəbəsində davam etdirir. Kitabxana sahəsi 32 kv/m olan 1 otaqdan ibarətdir. Kitabxananın 2 nəfər ali, qeyri-ixtisas təhsilli işçisi var. Kitabxananın fondu latın qrafikası ilə 2242 nüsxə təşkil edir.

Şuşa rayon MKS-nin Quşçular kənd kitabxana filialı isə 1966-cı ildə yaradılmışdır. İşğaldan sonra kitabxana öz fəaliyyətini Sabunçu rayonu Pirşağı qəsəbəsindəki "Gilavar" sanatoriyasında davam etdirir. Kitabxana sahəsi 24 kv/m olan 1 otaqdan ibarətdir. Kitabxananın orta ixtisas təhsilli 2 nəfər işçisi var. Kitabxananın fondu latın qrafikası ilə 2635 nüsxədir.

2007-ci ildə çap edilmiş "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" adlı ensiklopedik kitabda 2004-2005-ci illər üzrə regional kitabxanaların fəaliyyətinə dair bir sıra statistik göstəricilər təqdim edilmişdir. Burada 2004-cü ildə kitabxananın fondu 11037 nüsxə, kitab verilişi 2370 nüsxə, oxucuların sayı isə 395 nəfər olduğu göstərilir, 2005-ci ildə isə bu rəqəmlər müvafiq olaraq 19000 nüsxə, 9800 nüsxə, 420 nəfər idi [17, s. 373]. 2015-ci ilin məlumatına görə isə MKS-də kitab fondu 34912 nüsxə, oxucuların sayı 3871 nəfər, kitab verilişi 49212 olmuşdur. Halbuki işğaldan öncə 200 minə yaxın ədəbiyyat fondu olan Şuşa kitabxanası 10000 nəfərdən çox oxucu kütləsinə xidmət göstərirdi.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 11 oktyabr 2011-ci il tarixli 162 №-li Qərarına əsasən Mərkəzi kitabxanada 2 yeni şöbə Kitabxana - biblioqrafiya proseslərinin avtomatlaşdırılması və İnformasiya-resurs şöbələri yaradılmışdır ki, bu şöbələr kitabların, ölkəşünaslıq, diyarşünaslıq məlumatlarının elektron kataloqlaşdırılması, gündəlik mətbuatın elektron kartotekasının bazalara yerləşdirilməsi, oxuculara elektron resurslar vasitəsilə operativ xidmətin təşkilini həyata keçirir. Şuşa rayon MKS-nin veb səhifəsi (shusha.cls.az) kitabxananın fəaliyyətini işıqlandırır.

Şuşa rayon MKS-nin direktoru Gülsarə Abbasova ilə müsahibəmizdə aydın oldu ki, Şuşada ilk şəhər kitabxanasının yaranma tarixi 1897-ci ilin fevral ayı olduğu qəbul edilmiş, 2017-ci ildə isə indiki Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşa kitabxanasının yaradılmasının 120 illiyi qeyd edilmişdir. Şuşa şəhər kitabxanasının 120 illiyi münasibətilə Şuşa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) bir sıra əməkdaşları nazirliyin "Fəxri mədəniyyət işçisi" döş nişanı və fəxri fərmanlarla təltif edilmiş, direktor Gülsarə Abbasova Əməkdar mədəniyyət işçisi adına layiq görülmüşdür [14].

Kitabxananın fəaliyyətinə dair göstəricilərin təhlili onu deməyə əsas verir ki, erməni işğalı kitabxananın həm fondunun məhv edilməsinə, həm fəaliyyətinin geriləməsinə, bir sıra avtomatlaşdırılmış kitabxana proseslərinin ləngiməsinə, regionun hərtərəfli inkişafına böyük zərbə vurmuşdur. Burada təkcə 1 statistikaya nəzər salsaq aydın olur ki, 200 000 dəyərli, unikal və tarixi nəşrin məhv edilməsi, mühüm tarixi faktların təhrif edilməsi, 1 regionun tarixi, mədəniyyəti, elmi, təhsili və bütövlükdə milli-mənəvi dəyərlərinin talan edilməsi deməkdir. Və qeyd edək ki, 200 000 nüsxə təkcə Mədəniyyət Nazirliyi şəbəkəsinə daxil olmuş kitabxanaların fonduna məxsusdur. Mənfur erməni quldurları Şuşada təkcə ictimai, kütləvi kitabxanaları deyil, orta məktəb, orta-ixtisas məktəbi, idarə və təşkilatlarda mövcud olan kitabxanaları, şəxsi kitabxanaları da yandırmış, evlərdə saxlanılan neçə-neçə qiymətli kitablar, əlyazmalar, nadir nüsxələr də tamamilə məhv edilmişdir.

İnanırıq ki, 2020-ci ildə qazandığımız zəfərdən sonra ən qısa zamanda kitabxana öz fəaliyyətini əzəli torpağımız olan doğma Şuşada yeni qurulmuş ağıllı şəhər və kəndlərdə yeni tipli modern kitabxanalarda davam etdirəcək. "Smart" və ya "ağıllı" kitabxanalar yeni nəsil informasiya texnologiyalarından istifadə etməklə istifadəçilərin və kitabxana sistemlərinin interaktivliyini dəyişdirmək üçün daha ağıllı bir modeldir. Bu kitabxanalarda daha "ağıllı" xidmətlər və idarəetmə sistemləri işləyir. Hazırda Şuşada bu cür kitabxanaların yaradılması məqsədəuyğun olar.

Dünya təcrübəsində ağıllı kitabxanalar "smart library" texnologiyası ilə təchiz olunur və əməkdaşların iştirakı olmadan belə kitabxana istifadəçilərinin üzünə açıla bilir. Bu texnologiya kitabxana binalarını, o cümlədən avtomatik qapıları, işıqlandırmanı, özünəxidmət köşklərini, kitabxana xidmətlərini yerinə yetirən robot texnologiyalarını və kompyuterləri uzaqdan idarə etməyə imkan verir. Bu daha çox insanın rahatlıqla kitabxanadan istifadə edə bilməsi üçün kitabxananın iş saatlarının əhəmiyyətli dərəcədə uzadılmasına səbəb olur. Yekun olaraq "ağıllı" kitabxananın fundamental amillərini və əsas konseptual komponentlərini üç kateqoriyaya bölmək olar:

- "ağıllı" texnologiyalar (verilənlərin təhlili və süni intellekt);
- "smart" xidmətlər (istifadəçiyə yönəlmiş xidmətlər);
- "smart" insan resursları (istifadəçi və kitabxanaçı) [10].

Əşyaların interneti, RFID texnologiyaları kimi müxtəlif texnologiyaların kombinasiyası ilə ağıllı texnologiyalar; bulud hesablamaları, süni intellekt, Big Dataların təhlili, kitabxana robotları, blokçeyn texnologiyası kimi digər rəqəmsal texnologiyalar kitabxanaları texnoloji mühitə çevirmişdir.

Ağıllı kitabxanada işləyən kitabxana işçiləri "smart" olmalıdır, çünki onlar ağıllı texnologiyalarla işləməklə yanaşı, həm də "smart" istifadəçilərə xidmət göstərirlər. Ağıllı kitabxanalardakı xidmətlər istifadəçilərin ehtiyac və tələblərinə uyğunlaşdırıla bilər. İndi kitabxanaları sadəcə məkan olaraq deyil, texnologiyalar, yeni xidmətlər və onlardan yararlanan "smart" insanları birləşdirən konsepsiya kimi təsəvvür etmək lazımdır.

**Nəticə**

*Hazırda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkil etdiyi "Qarabağa kitabla gedək" kitabtoplama kampaniyasına on minlərlə kitab*

*toplanmışdır. Ümidvarıq ki, bu toplanan nəşrlər və eləcə də yeni alınmış kitablar əsasında qurulacaq Şuşa kitabxanalarının smart texnologiyalarla idarə edilməsi regionda bir ilk olmaqla yanaşı, həmçinin Şuşalılara da yeni, interaktiv və innovativ kitabxana xidmətləri təqdim edəcəkdir.*

**Ədəbiyyat siyahısı:**


1. Abbasova G. (2021, Yanvar 31) müsahibəni aldı: A.T. Abdullayeva
2. Ağamirov M. Kitabxanalara ictimai baxış/M.Ağamirov //Şuşa, 1967, 01 aprel, S.2.
3. Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 yanvar 2022-ci il //Azərbaycan, 2022, 6 yanvar, S.1.
4. Cavadov, Z. Şuşa Mərkəzləşmiş kitabxana sistemi fəaliyyətini genişləndirir /Zabit Cavadov //Respublika, 2016, 14 may, S. 5.
5. Cəfərov İ. Yeni kitabxanada //Şuşa, 1977, 11 dekabr, S.4.
6. Çəmənzəminli, Y. Bir cavanın dəftəri /red. G. Həsənzadə,Bakı: Azərnəşr, 1966, 122 s.
7. Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar /tərt. S.Abbasov; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Bakı, 2012 s.
8. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika: (1987-2011) : [ensiklopedik nəşr] /elmi red. Ə. Həsənov, Bakı, 2012, 912 s.
9. Əliyeva, T. Yeni kitablar //Şuşa, 1977, 22 fevral, S.4.
10. Gaohui Cao, Mengli Liang, Xuguang Li, (2018) "How to make the library smart? The conceptualization of the smart library" // The Electronic Library, Vol. 36 No. 5, pp. 811-825.
11. Həmzəyeva Ş. Kitabxanadan istifadə qaydalarına ciddi əməl etməli //Şuşa, 1968, 14 noyabr, S.4.
12. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: dərslik. II Hissə, Bakı, 2007, 562 s. S. 105-107.
13. Muxtarov Ü. Kitab fondu artır//Şuşa, 1975, 11 dekabr, S.4.
14. Mükərrəmoğlu, M. Suşa şəhər kitabxanasının 120 yaşı tamam oldu //Xalq qəzeti, 2017, 1 mart, S.7.
15. Mürsəliyev E. Yeni kitabxanada //Şuşa, 1977, 16 iyun, S.4.
16. Nəcəfov, Ə. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi: (1923-1988-ci illər) : tarix e. n. a. dər. al. üçün təq. ed. dis.: 07.00.02 ; 05.25.03 /AzEA, A. A. Bakıxanov ad. Tarix İn-tu.-Bakı, 2001, 195 s.
17. Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sisitemi //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. Cild I, II /tərt. və elmi red Məmmədəliyeva Sevda, Bakı, 2007, S.372-274.
18. Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sisiteminin 2019-cu il üzrə hesabatı, 3 s.
19. Zəkiyev İ. Əsrlərin əks-sədası, Bakı,1992, 174 s.

**Adila Abdullayeva**

**Book and lıbrary culture of ancıent Shusha**

The article discusses the establishment of 125-year-old libraries of ancient Shusha, their activities and their destruction during the Armenian occupation, the looting of unique and rare copies of the library, valuable publications on the history, culture, national and spiritual values, education, science and economy of Azerbaijan. Historical research shows that not a single library in Karabakh was built by armenians, and historically the creation, activity and development of all libraries in Shusha from the first library to the present day, were carried out by Azerbaijanis.

200,000 copies belonging to the library fund of the Ministry of Culture alone were destroyed in May 1992 while the occupation of Shusha by Armenian armed groups. The article also presents proposals for smart libraries to be established during the reconstruction and restoration work in Karabakh, as well as in Shusha after the 44-day war and victory in September-November 2020, their activities and new library services.

***Keywords:*** *destroyed libraries, Shusha District Centralized Library System, library fund, library services in Shusha, library specialists, smart libraries*

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Cavid Cəfərov** tərəfindən çapa tövsiyə olunmuşdur.